# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ NADİR GEOFİTLƏRİN QORUNMASI

**Dadaşova L.K.**

*Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi*
*lala_eko@mail.ru*

Azərbaycan florasının bioloji müxtəlifliyi öz unukal zənginliyi ilə bütün dünyada məşhurdur. Qafqaz regionunda bir çox nadir və endemik bitki növlərinin məhz bu ərazidə məskunlaşması əsrlər boyu formalaşmış 8 iqlim tipinin təsiri altında davam edən təkamül prosesinin nəticəsidir. Müasir dövrdə təbii landşaftlara antropogen təsirin güclənməsi nadir geofit bitkilərin məhdud saylı lokalitetlərinə mənfi təsir göstərir. İnsanlığa qarşı ən ağır cinayət olan hərbi təcavüz zamanı flora və faunaya qarşı ekoloji terrorun fəsadları təbiətə ən ağır zərbədir.

Zəfərli yurdumuzun təbiət gözəllikləri ilə zəngin olan təkrarolunmaz bitki örtüyünün işğaldan azad ərazilərdə illər boyu ekoloji vandalizmə, hərbi müdaxiləyə və düşmən tapdağına məruz qalması ciddi narahatlıq doğurur. İşğaldan azad edilən qədim torpaqlarımzda bioloji müxtəlifliyinin öyrənilməsi və bərpası bu günün aktual məsələlərindən biridir. Hazırda bitki örtüyünün öyrənilməsi və bərpası istiqamətində mühüm elmi-tədqiqat, monitorinq işləri həyata keçirilir.

Həmin ərazilərdə müxtəlif illərdə tədqiqatçılar tərəfindən qeydə alınmış nadir geofit bitkilərdən *Tulipa* L. və *Iris* L. növlərinin hazırki durumunun tədqiq olunması əhəmiyyətlidir. Ölkəmizdə 9 dağlaləsi və 25 süsən növünə təsadüf edilir. Azərbaycanın "Qırmızı Kitabı"nın (2013) ikinci nəşrinə 8 *Tulipa* L. növü və 15 *Iris* L. növü daxil edilib. 3 *Tulipa* L. növünə və 7 *Iris* L. növünə Azərbaycanın digər bölgələri ilə yanaşı azad edilmiş ərazilərdə də təsadüf edildiyi göstərilir. Qarabağ dağlaləsi – *Tulipa karabachensis* Grossh. Azərbaycanın nadir, Cənubi Qafqazın endemik növüdür. Kiçik Qafqazın mərkəzi dağ qurşağında, Şuşa ətrafında, qayalıqlarda, meşə talasında rast gəlinir. IUCN Qırmızı Siyahısına görə "Məlumat azlığı" kateqoriyasına aiddir - DD. *Tulipa schmidtii* Fomin - Xocavənd, Əsgəran (Topxana), Cəbrayıl rayonu, Məzrə kəndi ətrafında qeydə alınıb. "Təhlükəli həddə yaxın olanlar" kateqoriyasına aiddir – NT. (Azərbaycanın "Qırmızı kitabı", 2013). *Tulipa biebersteiniana* Shult. et Shult. – Qarabağın cənubunda, Murovdağda qeydə alınıb (Qafqaz florasının konspekti, 2006). IUCN Qırmızı Siyahısına görə "*Nəsli kəsilməyə həssas olanlar*" kateqoriyasına aiddir – VU A2c + 3c. *Iris caucasica* Stev. (*Juno caucasica* (Hofmm.) Klatt.) Qarabağın cənubunda qeydə alınıb. Azərbaycanın nadir, Qafqazın endemik növüdür. IUCN Qırmızı Siyahısına görə "Təhlükəli həddə yaxın olanlar" kateqoriyasına aiddir – NT. *Iris alekseenkoi* Gross. - Murovdağın yamaclarında qeydə alınıb. Azərbaycanın nadir, Qafqazın endemik növüdür. "Kritik təhlükə həddində olanlar" kateqoriyasına aiddir – CR B2b(iii, iv, v); c(ii, iii). *Iris helena* C.Koch. – Qarabağın cənubunda, Murovdağda qeydə alınıb. *Iris iberica* Hoffm. - Murovdağın yamaclarında qeydə alınıb. "Nəsli kəsilməyə həssas olanlar" kateqoriyasına aiddir – VU D2. Azərbaycanın nadir, Qafqazın endemik növüdür. *Iris pseudacorus* L. Azərbaycanın nadir növü olub, Şuşa, Zəngəzur ərazisində rast gəlinir. "Nəsli kəsilməyə həssas olanlar" kateqoriyasına aiddir –VU B1ab(iii) + 2ab(iii). *Iris paradoxa* Stev. Azərbaycanın nadir, Qafqazın endemik növüdür. Qarabağda, Murovdağda rast gəlinir (A.D. Mixeyev, 2004). "Nəsli kəsilməyə həssas olanlar" kateqoriyasına aiddir – VU D2. *Iris reticulata* Bieb. (*Iridodictyum reticulatum* (Bieb.) Rodionenko)) – Azərbaycanın nadir növüdür, Qarabağda, Murovdağda qeydə alınıb. "Təhlükəli həddə yaxın olanlar" kateqoriyasına aiddir – NT (Qafqaz florasının konspekti, 2006).

Nadir geofitlərin toxum və vegetativ orqanlar vasitəsilə mədəni şəraitdə introduksiyası bitkilərin təbiətdə reabilitasiyasına şərait yaradır. Yüksək dekorativ xüsusiyyətləri, ekoloji tolerantlığı, zəngin növmüxtəlifliyi ilə fərqlənən *Tulipa* L. *və İris* L. növləri seleksiya işləri üçün əvəzsiz genofonddur. İşğaldan azad edilmiş ərazilərdə bitən nadir *Tulipa* L. *və Iris* L. növlərinin nəbatat bağlarında, təcrübə sahələrində mütəxəssislərin nəzarəti altında artırılması və tükəndikləri təbii ərazilərdə reintroduksiyası bitkilərin genofondunun qorunub saxlanmasında əhəmiyyətlidir.